**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**Azərbaycan Respublikasının**
**Təhsil Nazirliyinin**
**F-361 nömrəli 07.08 2020-ci il**
**tarixli qərarı ilə təsdiq**
**edilmişdir.**

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
VƏTƏNDAŞLARIN MÜRACİƏTLƏRİ İLƏ İŞ VƏ KOMMUNİKASİYA ŞÖBƏSİ

ƏSLİ İLƏ DÜZDÜR

# BAKALAVRİAT SƏVİYYƏSİNİN (ƏSAS (BAZA) ALİ TƏHSİLİNİN) İXTİSAS ÜZRƏ

# T Ə H S İ L  P R O Q R A M I

**İxtisasın (proqramın) şifri və adı: 050214 Tarix**

**BAKI – 2020**

# BAKALAVRİAT SƏVİYYƏSİNİN 050214 Tarix İXTİSASI ÜZRƏ TƏHSİL PROQRAMI

## 1. Ümumi müddəalar

1.1. Bakalavriat səviyyəsinin **"050214 Tarix"** ixtisası üzrə Təhsil Proqramı (bundan sonra ixtisas üzrə Təhsil Proqramı) "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarlarına, eləcə də "Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) Təsnifatı"na uyğun hazırlanmışdır.

1.2. Təhsil Proqramının məqsədləri aşağıdakılardır:

- İxtisas üzrə məzunun kompetensiyalarını, ixtisasın çərçivəsini, fənlər üzrə təlim və öyrənmə metodlarını, qiymətləndirmə üsullarını, təlim nəticələrini, kadr hazırlığı aparmaq üçün infrastruktura və kadr potensialına olan tələbləri, tələbənin təcrübə keçmə, işə düzəlmə və təhsilini artırma imkanlarını müəyyənləşdirir;
- Tələbələri və işəgötürənləri məzunların əldə etdiyi bilik və bacarıqlar, eləcə də təlim nəticələri barədə məlumatlandırmaq;
- Təhsil Proqramı üzrə kadr hazırlığının bu proqrama uyğunluğunun qiymətləndirilməsi zamanı bu prosesə cəlb olunan ekspertləri məlumatlandırmaq.

1.3. Təhsil Proqramı tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikasında fəaliyyət göstərən və **"050214 Tarix"** ixtisası üzrə bakalavr hazırlığını həyata keçirən bütün ali təhsil müəssisələri üçün məcburidir.

1.4. Tələbənin 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 saatdır (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla). Həftəlik auditoriya saatlarının həcmi ümumi həftəlik yükün 50%-dən çox olmamalıdır. İxtisasın xüsusiyyətindən asılı olaraq həftəlik yükün həcmi dəyişdirilə bilər.

## 2. Məzunun kompetensiyaları

2.1. Təhsil Proqramının sonunda məzun aşağıdakı ümumi kompetensiyalara yiyələnməlidir:

- İxtisası üzrə Azərbaycan dilində şifahi və yazılı kommunikasiya bacarıqlarına;
- İxtisası üzrə ən azı bir xarici dildə kommunikasiya bacarıqlarına;
- Azərbaycan dövlətçiliyinin tarixi, hüquqi, siyasi, mədəni, ideoloji əsasları və müasir dünyadakı yeri və roluna dair sistemli və hərtərəfli biliklərə, milli dövlətimizin perspektiv inkişafını proqnozlaşdırma bacarıqlarına;
- Milli dövlətimizin qarşılaşdığı təhdidləri və çağırışları müəyyən etmə qabiliyyətlərinə;

- İş yerində informasiya texnologiyalarından istifadə etmək bacarığına;
- Komandada iş, problemin həllinə ortaq yanaşmaya nail olmaq qabiliyyətinə;
- Yeni şəraitə uyğunlaşmaq, təşəbbüs irəli sürmək qabiliyyətinə və uğur qazanmaq iradəsinə;
- Məsələlərin həlli üçün əlavə məlumat resurslarını müəyyən etmək və seçə bilmək qabiliyyətinə;
- Peşəkar məqsədlər üçün müvafiq məlumatı təhlil etmək, ümumiləşdirmək və tətbiq etmək bacarıqlarına;
- Peşəkar fəaliyyətini planlaşdırmaq və təşkil etmək, gələcək təhsilini və mövcud bacarıqlarını təkmilləşdirilmək, vaxtı idarə etmək və tapşırıqları vaxtında tamamlamaq qabiliyyətinə;
- Fəaliyyətində sosial və ekoloji məsuliyyətə, eləcə də vətəndaş şüuruna və etik yanaşmaya, həmçinin keyfiyyətə üstünlük vermək bacarığına;
- Bilik və bacarıqlarını inkişaf etdirmək məqsədilə vəziyyəti və özünü yenidən qiymətləndirmək və özünütənqid bacarığına;
- Sistemli düşünə bilmək, sistemləri təhlil edərək elementlər arasında əlaqələri aşkarlayıb dərk etmək, müxtəlif sahələrdə və fərqli səviyyələrdə sistemli əlaqə prinsiplərini dərk etmək, qeyri-müəyyən şəraitdə fəaliyyət göstərmək səriştəsi;
- Strateji baxış formalaşdırmaq, fəaliyətin mümkün nəticələrini görə bilmək (mümkün, ehtimal edilən və arzu olunan), dərk etmək və qiymətləndirmək qabiliyyəti, fəaliyyyətin gələcəyi haqqında aydın fikirə malik olmaq, risk və baş verə biləcək dəyişiklkləri nəzərə almaq, qərarların qəbulunda yenilikçi və yaradıcı olmaq bacarığı;
- Başqalarına qulaq asmaq, dinləmək, onların ehtiyaclarını, hərəkətlərini anlamaq, fikirlərini öyrənmək, yaranan münaqişələri həll etmək, problemlərin həllinə yönəlik kollektiv əməkdaşlıqda iştirak və fərqli yanaşmalardan istifadə bacarığı;
- Qəbul edilmiş norma, yanaşma və fikirləri tənqidi təhlil etmək, öz baxışlarına və fəaliyyətinə tənqidi yanaşmaq, cəmiyyətdə öz rolunu tənqidi qiymətləndirmək bacarığı.

**2.2 *Təhsil Proqramının sonunda məzun aşağıdakı peşə kompetensiyalarına yiyələnməlidir:***

- Tarix elminin meydana gəlməsi, yazıyaqədərki tarixi mənbələr, qədim insan düşərgələri, maddi mədəniyyət nümunələri, Vətən tarixinin öyrənilməsi üçün yazıyaqədərki maddi mədəniyyət nümunələrinin, insan düşərgələrinin rolu, elmi ictima-siyasi əhəmiyyəti, Azərbaycan bəşər sivilizasiyasının ən qədim və ilkin məskənlərindən biri kimi, Azərbaycan və dünya tarixinin inkişaf mərhələləri, ictimai-inkişaf qanunauyğunluqlarını təhlil etməyi bacarmaq;(PK-1)

- Dünya tarixinə, bəşər mədəniyyətinə misilsiz tövhələr bəxş etmiş Azərbaycan tarixinin yerli və dünya mənbələri əsasında tədqiqi, Azərbaycanın dünyanın qeyri-maddi mədəniyyət nümunələri kimi YUNESKO tərəfindən qeydiyyata götürülən tarixi-memarlıq abidələrinin, milli adət-ənənələrimizin öyrənilməsi, təbliği, dünya ictimaiyyətinə çatdırılması səriştəsi var;(PK-2)
- Azərbaycan ərazisində mövcud olmuş ən qədim insan məskənlərinin, düşərgələrinin - Azıx, Tağlar, Daşsalahlı, Buzeyr, Azərbaycan ərazisində ibtidai cəmiyyətin dağılmasından müasir dövrə qədər təşəkkül tapan dövlət qurumlarının, dövlətlərin, onların siyasi, tarixi-coğrafi sərhədlərinin, sosial-iqtisadi, ictimai-siyasi inkişafını, fəaliyyətini, Azərbaycan xalqının etnogenezi, formalaşmasını, xarici istilaçılara qarşı xalqımızın mübarizəsini, Azərbaycan millətinin təşəkküllü prosesini, Milli istiqlal hərəkatının yaranmasını zəruri edən obyektiv amilləri, Azərbaycan xalqının maddi və mənəvi mədəniyyətini təhlilini aparmağı bilmək; (PK-3)
- Tarixşünaslıq haqqında zəruri bilik və vərdişlərin yaradılması, tarixşünaslığın nəzəri əsaslarının aşılanması; tarixi tədqiqatlar zamanı tarixşünaslıq materiallarından praktik yararlanmanın metodları, üsul və formalarını bilmək; ən qədim dövrlərdən indiki dövrümüzə qədər problemləri özündə əks etdirən tarixşünaslıq materiallarının təhlili, analiz-sintez və müqayisəsini aparmağı bacarmaq; (PK-4)
- Azərbaycan və dünya etnoqrafiyasına dair deduktiv və induktiv materialların öyrənmək; Azərbaycan və dünya xalqlarının adət, ənənə, məişət, mədəniyyəti, həyat tərzinin müqayisəli şəkildə təhlili, öyrənilməsi, xalqımızın milli mənəvi dəyərlərinin öyərnilməsində və təbliğində etnoqrafiyanın nailiyyətlərindən istifadə etmək üçün müvafiq bacarıqları formalaşdırmaq; (PK-5)
- Qədim Şərq dövlətlərinin təşəkkülü, meydana gəlməsini şərtləndirən obyektiv ictimai-siyasi, təbii-coğrafi amilləri, Qədim Şərqdə quldarlıq cəmiyyətlərinin meydana gəlməsi, inkişafı və tənəzzülünü, quldarlıq istehsal təssərüfatının spesifik xüsusiyyətlərini, Qədim Şərqin maddi-mənəvi mədəniyyəti, tarixi-memarlıq abidələri, elm və incəsənətini, Yaxın Şərq dövlətlərinin meydana gəlməsi, inkişafı və fəaliyyətini şərtləndirən obyektiv amilləri, Yaxın Şərq regionunda siyasi münasibətləri, Yaxın Şərq dövlətlərinin yeni dövrdə ictimai-siyasi, sosial-iqtisadi və mədəni tarixini bilmək (PK-6)
- Avropa dövlətlərinin meydana gəlməsini, təşəkkülünü zəruri edən obyektiv səbəblərini, qədim german tayfaları, Roma imperiyasının süqutu, Böyük Karl, Verden müqaviləsi, Avropada erkən feodal dövlətlərinin yaranması, feodal pərakəndəliyi, natural təsərrüfat, feodal nərdivanı, mərkəzləşmiş Avropa dövlətlərinin yaranması, Avropada burjua inqilabları və yeni ictimai-iqtisadi münasibətlərin meydana gəlməsi, sənaye çevrilişi, iqtisadi inkişaf, xammal mənbələri-satış bazarlarının ələ keçirilməsi uğrunda mübarizənin kəskinləşməsi tarixini, XIX əsrin sonu-XX əsrin əvvəllərində Avropa ölkələrinin sosial-iqtisadi və siyasi inkişafının səciyyəvi cəhətlərini, XIX əsrin ikinci yarısında texniki inqilab və onun Avropa ölkələrinə təsirini, dünyanın bölüşdürülməsində Avropanın iri

dövlətlərinin iqtisadi və geosiyasi maraqlarının qarşılıqlı əlaqələrini, I Dünya müharibəsinin başlanma səbəbləri, gedişatı və nəticələrini bilmək (PK-7)

- Müasir ictimai-siyasi, sosial-iqtisadi proseslərin təhlilinin, müqayisəli analizi və öyrənilməsinin metod və prinsiplərini bilmək, müasir dünya tarixinin aktual problemlərinin təhlili və öyrənilməsini bacarmaq, regional və qlobal proseslərin, problemlərin tədqiqi, təhlili nəticəsində qazandığı biliklərdən müasir dünya tarixi, müasir beynəlxalq münasibətlərin, konfliktoloji problemlərin öyrənilməsində tətbiq etməyi bacarmaq; (PK-8)
- Türk xalqlarının təşəkkülü, etnogenezi, digər xalqlarla mədəni-iqtisadi, sosial-siyasi münasibətlərini öyrənmək; ən qədim zamanlardan müasir dövrədək mövcud olmuş, fəaliyyət göstərmiş türk dövlətlərinin yaranmasını zəruri edən obyektiv amillərin tədqiqi, təhlili, öyrənilməsi; türk xalqlarının tarixinə dair yerli-lokal və dünya mənbələrinin öyrənilməsi, Türk xalqlarının dünya mədəniyyəti xəzinəsinə tövhəsi, Türk xalqlarının dövlət və ordu quruculuğu, tarixi inkişafın ən mühüm proseslərinə göstərdiyi önəmli təsirini, XX əsrin əvvəllərindən başlayaraq türk xalqları içərisində özünüdərk meyllərinin güclənməsi zəmnində çoxsaylı türkdilli xalqlar arasında türkçülük ideologiyasının inkişafını və onun dünyada baş verən proseslərə təsirini bilmək (PK-9)
- Qədim slavyan tayfaları, Qərb, Şərq və Cənub Slavyan xalqlarının həyat tərzi, məişəti, adət-ənənə və mədəniyyətlərini, o cümlədən xalqların böyük koçü və slavyanlar, slavyan dövlətlərinin yaranması və inkişafını zəruri edən obyektiv amilləri, slavyan ölkələrində ibtidai cəmiyyətdən feodalizmə keçidin obyektiv səbəblərini, slavyan ölkələrində feodal pərakəndəliyi, mərkəzi dövlətlərin yaranması, inkişafı səbəbləri, cənub, qərb və şərq slavyan dövlətlərinin yeni və müasir dünya tarixində rolu və yerini bilmək; (PK-10)
- Qafqaz xalqlarının tarixinə dair ən mühüm, zəruri məlumatların, elmi biliklərin araşdırılması, təhlilini, Cənubi və Şimali Qafqaz xalqlarının etnogenezi, digər xalqlarla münasibəti məsələlərinin o cümlədən, Cənubi və Şimali Qafqaz xalqlarının tarixinə dair mənbələrini, Qafqaz xalqlarının dövlətçilik və ordu quruculuğu məsələlərini, Qafqazda ən qədim dövrlərdən müasir dövrdək mövcud olmuş dövlətlərin tarixi-siyasi və tarixi coğrafi sərhədlərini, erməni tarixçilərinin Qafqaz və dünya tarixini saxtalaşdırmaq cəhdlərini, Qafqaz tarixinin Cənubi Qafqazdakı müasir konfliktoloji problemlərin araşdırılmasındakı elmi-praktik rolunu bilmək; (PK-11)
- Antik tarix anlayışı, mahiyyəti, tədqiqat sferası, dünya tarixində yeri və rolunu, Krit sivilizasiyası, Mikena mədəniyyəti, Mikena və Lakonikada dövlətlərin təşəkkülünü, şəhər dövlətlərin yaranması, fəaliyyəti, sözügedən dövrün beynəlxalq münasibətlər sistemindəki rolunu, koloniyalar-əhali məskunlaşmasının yeni tipini, Yunan-İran –müharibəsi, Pelopenes müharibəsi, Yunan –Roma müharibəsi, Ellinizm, Antik dövrün elmi, mədəniyyəti və incəsənəti, Qədim Roma dövlətinin və imperiyasının yaranmasını, Pun müharibələrinin ictimai-siyasi və iqtisadi-sosial nəticələrini, Roma imperiyasının Aralıq

dənizi sahillərində nüfuzunu möhkəmlətmək cəhdlərini, plebeylər, patrisilər, tribun və konsullar haqqında tarixi məlumatları bilmək; (PK-12)
- Bəşər tarixinin yazıyaqədərki, yeraltı, yerüstü maddi mədəniyyət abidələrini, ibtidai cəmiyyətin təşəkkülü, inkişaf mərhələlərinin qanunauyğunluqlarının öyrənilməsində insan düşərgələrinin arxeoloji tədqiqinin elmi-praktik əhəmiyyətini, Azərbaycan və dünya arxeologiyasının ən mühüm nailiyyətlərini, Azığ mağarası, Azıxantrop, Gəmiqaya, Qobustan abidələrini, Azərbaycanın mühüm arxeoloji düşərgələrində çöl-praktik işlərinin aparılmasını bilmək; (PK-13)
- Amerika tarixinə dair bilik və bacarıqları, dünyanın aparıcı güc mərkəzlərindən biri və başlıcası ABŞ-ın meydana gəlməsini şərtləndirən elmi-obyektiv amillərin təhlilini, Amerikada avropalıların ilk məskunlaşmasını və onun qitə üçün ictimai-siyasi, sosial-iqtisadi nəticələrini, Şimali Amerika və Cənubi Amerika ölkələrinin yeni dövr tarixini bilmək və onun müasir dünya tarixinə təsirlərini müəyyən etməyi bacarmaq; (PK-14)
- Azərbaycan Respublikasının xarici siyasət mexanizmi, xarici siyasətinin əsas prinsipləri, prioritetləri, istiqamətləri, müxtəlif dövlətlərlə siyasi, hərbi, diplomatik, iqtisadi və mədəni sahələrdə ikitərəfli münasibətləri, beynəlxalq təşkilatlarla əlaqələri, enerji siyasəti və onun regional və beynəlxalq münasibətlər sisteminə təsirini təhlil etmək; xarici siyasət qarşısında duran əsas çağırışları, riskləri və problemləri müəyyyən etmə; xarici siyasətin həyata keçirilən əsas istiqamətləri üzrə proqnozlaşdırmağı bacarmaq; (PK-15)
Azərbaycan Respublikasının milli təhlükəsizliyinə təhdid yaradan əsas təhlükələr və riskləri müəyyən etmək və qiymətləndirmək, bu təhlükə və riskləri idarə etmək və tənzimləməyi bacarmaq; (PK-16)
- Karyera barədə ilkin anlayışları, karyera inkişaf fəaliyyətlərini, iş müsahibəsinə hazırlıq prosedurlarını və müsahibə texnikalarını bilmək, karyera yol xəritəsinin tərtib olunmasını və texnikaları, iradə, motivasiya və pozitiv düşüncə, işgüzar etika, iş axtarma strategiyaları, eləcə də iş üçün müraciət qaydalarını, peşəkar CV, rezume, istək və tövsiyə məktublarının hazırlanmasını bacarmaq; (PK-17)
- Vaxtın effektiv idarə edilməsini, stres menecmentini, kreativ, tənqidi və analitik düşüncə formalarını bilmək, problem həll etmə və qərarvermə texnikalarına, natiqlik bacarıqlarına sahib olmaq, eləcə də komanda işinin qurulmasını bilmək və liderlik prinsiplərinə yiyələnmək; (PK-18)
- Layihələrin hazırlanması idarə edilməsində iştirak etmək və digər çox istifadə olunan proqram təminatlarından istifadəni bacarmaq, iş həyatında şifahi və yazılı kommunikasiya vasitələrindən istifadə etməyi bacarmaq; (PK-19)
- Media materialları ilə işləmək, müəyyən mövzular üzrə araşdırmalar aparmaq, faktiki materialları toplamaq, ümumiləşdirmək, nəticə çıxarmağı bacarmaq; (PK-20)

- Strateji düşüncə tərzini formalaşdırmaq, strateji məqsədlərin düzgün formalaşdırması, strategiyanın hazırlanması prosesində vəziyyətin analizini aparmağı bacarır; informasiya resurslarının strateji idarəolunması bacarıqlarına; strateji idarəetmə metodlarını tətbiq etməyi bacarmaq. (PK-21)
- Beynəlxalq münasibətlər və dünya siyasəti ilə bağlı konkret problemləri və məsələləri dərindən təhlil etmək səriştəsinə malik omaq; (PK-22)

## 3. Təhsil Proqramının strukturu

3.1. **"050214 Tarix"** ixtisası üzrə Təhsil Proqramı 240 (4 il) AKTS kreditindən ibarətdir. Kreditlər aşağıdakı şəkildə bölüşdürülür:

| Fənlərin sayı | Fənnin adı | AKTS krediti |
|---|---|---|
| | **Ümumi fənlər** | **30** |
| 1 | **Azərbaycanın tarixi**<br>Bu fənn Azərbaycanın müasir dövlətçilik ənənələrinin yaranmasını, mərhələlərini, formalaşmasını və inkişafını öyrənir, müasir Azərbaycan dövlətçiliyinin güclənməsində siyasi, ideoloji, iqtisadi, mədəni amillərin rolunu təhlil və tədqiq edir. Tələbələrimizdə vətənpərvərlik hissini aşılamaq üçün müxtəlif tarixi mərhələlərdə yaranmış dövlətlərin siyasi tarixi, ayrı-ayrı şəxsiyyətlərin qəhrəmanlıq nümunələri tarixi faktlar əsasında şərh olunur. Müasir dünyada Azərbaycan dövlətinin yeri və rolu sistemli təhlil edilir. Əsas məqsəd tələbələrdə geniş dünyagörüşünün, vətən sevgisinin, tarixi hadisələri analitik təhlil etmə qabiliyyətinin və hadisələrdən, siyasi proseslərdən düzgün nəticə çıxarmaq qabiliyyətini formalaşdırmaqdan ibarətdir. | 5 |
| 2 | **Azərbaycan dilində işgüzar və akademik kommunikasiya**<br>Bu fənn çərçivəsində tələbələrə Azərbaycan dilində təqdimat etmək, natiqlik, akademik və işgüzar yazı bacarıqlarının aşılanmasına xüsusi diqqət yetirilməlidir. | 4 |
| 3 | **Xarici dildə işgüzar və akademik kommunikasiya**<br>Bu fənn çərçivəsində tələbələrə ixtisası üzrə xarici dillərdən birində təqdimat etmək, natiqlik, akademik və işgüzar yazı, şifahi və yazılı bacarıqların aşılanmasına xüsusi diqqət yetirilməlidir. | 15 |
| 4 | **Seçmə fənlər** (Seçmə fənlər ali təhsil müəssisəsi tərəfindən müəyyən edilir. İxtisasın spesifikasından asılı olaraq seşmə fənlərə əlavələr edilə bilər) | 6 |

| | | |
|---|---|---|
| 4.1 | Fəlsəfə<br>Sosiologiya<br>Azərbaycan Respublikasının Konstitisiyası və hüququn əsasları<br>Məntiq<br>Etika | 3 |
| 4.2 | İnformasiya texnologiyaları (ixtisas üzrə)<br>İnformasiyanın idarə edilməsi<br>Sahibkarlığın əsasları və biznesə giriş<br>Politologiya | 3 |
| | **İxtisas fənləri** | **120** |
| 5 | **Azərbaycan Tarixi**<br>Bu fənn Azərbaycan tarixini sistemli əsasda dörd dövrə bölərək öyrənir. Birinci dövrdə Azərbaycan tarix elminin ümumi-nəzəri məsələləri, əsas problemləri, predmeti, quruluşu, dövrləşmə zəruriliyi və prinsipləri, Azərbaycan tarixi üzrə qaynaqlar, onun təsnifatı, mənbələri (maddi və yazılı), dövlətəqədərki dövr-ibtidai cəmiyyət-onun dövrləşməsi, ilk dövlət birliklərinin yaranması, Azərbaycan quldarlıq və feodalizm dövründə və Azərbaycan xalqının etnogenezisinin (soykökünün) əsas mərhələləri öyrənilir. İkinci dövrdə Monqol işğalları dövründə Azərbaycanın ictimai-siyasi və mədəni həyatının əsas xüsusiyyətləri, inkişaf etmiş feodalizm dövründə Azərbaycanın Baharlı və Bayandurlu dövlətlərinin (Qaraqoyunlu, Ağqoyunlu,) tarixinin əsas problemləri, mərkəzləşdirilmiş Azərbaycan Səfəvi dövlətinin (1501-1736-cı illər) yaranması, ərazisi, sərhədləri, əhalisi, siyasi və inzibati qurluşu, idarəetmə sistemi, mərkəzləşdirmə prosesi, sosial-iqtisadi mədəni həyatı, xarici siyasəti, Azərbaycan Səfəvi dövlətinin süqutundan Azərbaycan xanlıqlarınadək olan dövr və Azərbaycanın Rusiya və İran arasında bölüşdürülməsi tarixi öyrənilir. Üçüncü dövrdə XIX-XX əsrin əvvəllərində Azərbaycanda kapitalist münasibətlərinin yaranması, inkişafı, Azərbaycan millətinin təşəkkülü, milli azadlıq hərəkatının mərhələləri öyrənilir. Dördüncü dövrdə isə Azərbaycan Xalq Cumhuriyyətinin yaranması və fəaliyyəti, Şimali Azərbaycanın Sovet Rusiyası tərəfindən işğalı və Sovet rejiminin qurulması, Azərbaycan Sovet hakimiyyəti illərində, Azərbaycan dövlət müstəqilliyinin əldə edilməsi, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ problemi, Azərbaycanın Dövlət müstəqilliyinin bərpası və möhkəmləndirilməsində Heydər Əliyevin siyasi rolu və müstəqil Azərbaycan Respublikasının daxili və xarici siyasəti öyrənilir. | 22 |
| 6 | **Tarixşünaslıq**<br>Fənn çərçivəsində Azərbaycanda tarixi biliklərin meydana çıxması, | 4 |

| | | |
|---|---|---|
| | inkişafı prosesi və onun əsas mərhələləri, tarixi biliklərin tarix elminə çevrilməsi, tarix elminin cəmiyyətin ictimai elmi fikrinin və mənəvi mədəniyyətinin tərkib hissəsi kimi funksiyaları, tarix fənlərindən biri kimi tarixşünaslığın predmeti, vətən tarixşünaslığında və xarici tarixşünaslıqda müxtəlif istiqamətlərin və məktəblərin yaranması, təkamülü, onların ideya-siyasi cərəyanlarla əlaqəsi, tarixi fikirdə sivilizasiyaların və cəmiyyətlərin inkişafının ümumi problemləri, tarixşünaslığın müxtəlif istiqamətləri, daha böyük tarixi və sosioloji problemlər öyrənilir. | |
| 7 | **Etoqrafiyanın əsasları**<br>Etnoqrafiyanın əsasları tarix elminin bir hissəsi kimi xalqların maddi və mənəvi mədəniyyətini, məişət və təsərüffatını, adət və ənənələrini, bu sahələrdəki prosesləri öyrənən bir elm kimi tədris olunur.<br>Müxtəlif xalqların məişət və mədəniyyətində olan müxtəlifliyi öyrənmək; yalnız müasir xalqları deyil həmçinin, hazırda siyasi fəaliyyət səhnəsindən çıxmış, yox olmuş xalqları da öyrədir. | 4 |
| 8 | **Şərq tarixi**<br>Qədim Şərqdə ilk cəmiyyətlərin yaranması səbəblərini, Qədim Şərq xalqlarının və dillərinin xarakteristikasını, Qədim Şərq ölkələrinin tarixi inkişaf xüsusiyyətlərini, Qədim Şərqdə dövlət və onun cəmiyyətin inkişafında rolunu, Qədim Şərq dövlətlərinin ictimai-siyasi tarixinin əsas problemlərini, mədəni irsini, Qədim Şərq mədəniyyətinin ümumdünya mədəni inkişafa təsirini, Yaxın Orta Şərq regionunun sərhədlərini, tarixi inkişafının əsas dövrlərini, orta əsrlər dövründə Yaxın Şərqdə və Ön Asiyada cərəyan edən prosesləri: feodal münasibətlərinin özünəməxsus xüsusiyyətlərini, siyasi və sosial-iqtisadi proseslərin inkişaf dinamikasını, Yaxın və Orta Şərqdə orta əsrlərdə mövcud olmuş böyük imperiyaların (Ərəb xilafəti, Osmanlı, Səfəvi və başqaları) sosial-iqtisadi və mədəni həyatının inkişaf xüsusiyyətlərini, orta əsrlərin sonlarında Yaxın və Orta Şərq dövlətlərinin inkişaf dinamikasının zəifləməsi səbəblərini, Yaxın və Orta Şərqdə Avropa dövlətlərinin müstəmləkəçilik siyasəti və onun sosial-iqtisadi və mədəni nəticələrini, o cümlədən Yaxın və Orta Şərq ölkələrinin yeni dövr tarixini öyrənir. | 10 |
| 9 | **Avropa tarixi**<br>Feodalizmə keçidin əsas istiqamət və xüsusiyyətlərini, "xalqların böyük köçü" və onun nəticələrini, Qərbi Avropa feodalizminin əsas xüsusiyyətləri, Qərbi Avropa ölkələrində feodalizm quruluşunun bərqərar olmasının sosial – iqtisadi əsaslarını, Avropada mərkəzləşmiş dövlətləri, silki mütləqiyyətin formalaşması dinamikasını; Orta əsrlərdə şəhərlər, ticarət, sənətkar istehsalı və xüsusiyyətlərini, son orta əsrlərdə Avropa ölkələrində feodalizmin dağılması və kapitalist münasibətlərinin yaranmasını, kapitalın ilkin yığımı mütləq monarxiya anlayışlarının səciyyəvi əlamətlərini, Avropada Reformasiya hərəkatının səbəblərini, | 10 |

| | | |
|---|---|---|
| | gedişini və nəticələrini, intibah mədəniyyətinin yaranması səbəblərini, ölkələr üzrə intibah mədəniyyətinin xüsusiyyətlərini, dünya müstəmləkə sisteminin yaranması və onun nəticələrini, Avropa ölkələrinin yeni tarixinin xronologiyasını, dövrləşməsini, sosial-iqtisadi, siyasi və mədəni inkişafının başlıca xüsusiyyətlərini, Avropa ölkələrində siyasi partiyaların meydana gəlməsini, ayrı-ayrı ölkələrdə baş verən inqilabi hərəkatların səbəblərini, gedişini, nəticələrini və yeni dövrdə Avropa ölkələrinin dövlət quruluşu və siyasi sistemlərini, dövlət formalarını, Avropa ölkələrinin elmi-texniki nailiyyətlərini və dünyada texnologiyanın həlledici rolunu, Avropa ölkələrinin yeni dövrdə dövlətlərarası münasibətlərinin əsas istiqamətlərini, müstəmləkə sisteminin tam formalaşması və müstəmləkələr uğrunda mübarizənin formalarını, I dünya müharibəsinin səbəbləri və tarixi nəticələrini öyrənir | |
| 10 | **Müasir dünya tarixi**<br>Bu fənn dünya ölkələrinin müasir tarixinin əsas proseslərini, tarixi xronoloji çərçivəsini, dövrləşməsini və mənbəşünaslığını, dünya ölkələrində cərəyan edən başlıca proseslərin məzmununu, sosial-iqtisadi inkişafının xüsusiyyətlərini, partiyalararası siyasi mübarizəni, seçki sistemini, bu ölkələrdə keçirilən islahatları, hakimiyyətdə olan hökumət və administrasiyaların daxili və xarici siyasətini, dünya ölkələrinin müasir dövrdə inteqrasiya proseslərini, beynəlxalq terrorizmlə mübarizənin gedişini və nəticələrini, qlobal siyasi proseslərin təkamülünü və dünyanın siyasi xəritəsindəki dəyişiklikləri tədris edir. | 10 |
| 11 | **Türk xalqları tarixi**<br>Türk xalqlarının qədim və orta əsrlər dövründə sosial-iqtisadi, mədəni, siyasi həyatının səciyyəvi cəhətlərini, etnik tarixini, dövlətçilik ənənələrini, Mərkəzi Asiya, Qazaxıstan, Volqaboyu, Sibir və Krım türklərinin ərazisi, iqtisadi, siyasi və mədəni həyatı, türk xalqlarının yaşadığı ərazilərin böyük dövlətlər tərəfindən işğalını və onun sosial-siyasi nəticələrini, müasir dövrdə türk xalqlarının yerləşmə coğrafiyası, siyasi, mədəni inkişafının xüsusiyyətlərini, müasir dünyada baş verən qlobal proseslərdə türk xalqlarının mövqeyi və rolu, müstəqil türk dövlətlərinin inteqrasiyası problemlərini, onların daxili və xarici siyasətini, XX əsrin əvvəllərindən başlayaraq türk xalqları içərisində özünüdərk meyllərinin güclənməsi zəminində çoxsaylı türkdilli xalqlar arasında türkçülük ideologiyasının inkişafını, onun dünyada baş verən proseslərə təsirini və onun regional və beynəlxalq müstəvidə rolunu öyrənir. | 10 |
| 12 | **Slavyan ölkələri tarixi**<br>Slavyan ölkələri onların ərazisini, slavyan dövlətlərinin yaranması xüsusiyyətlərini, Cənub və Qərb slavyanlarının orta əsrlər tarixinin əsas xüsusiyyətlərini, Qədim Rus, Moskva knyazlığı və Rusiya imperiyasının | 5 |

| | | |
|---|---|---|
| | yaranması və inkişafının əsas tarixi faktlarını, Slavyan ölkələrinin mədəniyyətini, Oktyabr çevrilişi və SSRİ-nin yaranmasını, SSRİ-nin sosial – iqtisadi, siyasi və mədəni inkişaf xüsusiyyətlərini, SSRİ-də "yenidənqurma" və sovet imperiyasının dağılmasının nəticələrini, eyni zamanda Şərqi və Cənub Şərqi Avropada yaşayan slavyan xalqlarının tarixi və müasir daxili və xarici siyasətləri öyrənilir. | |
| 13 | **Müasir informasiya- kommunikasiya texnologiyaları və informasiya təhlükəsizliyi**<br>Fənn çərçivəsində müasir informasiya-kommunikasiya texnologiyalarının təsnifatı və xüsusiyyətləri; müxtəlif növ kompüter qurğuları və şəbəkə texnologiyaları daxil olmaqla, informasiya texnologiyalarının (İT) əsasları; İkilik say sistemləri kimi müxtəlif məlumatların təqdimetmə sxemləri; İT mühitində fəaliyyət göstərmək üçün lazım olan alətlər və tətbiqlərə giriş təqdim edilir; informasiyanın kompüter emalının əsas prinsipləri (kodlaşdırılması, saxlanması, ötürülməsi və s.) öyrədilir.<br>İnformasiya cəmiyyətinin konsepsiyası və xüsusiyyətləri, cəmiyyətin informasiyalaşdırılması prosesinin inkişaf mərhələləri, müxtəlif sahələrdə informasiya texnologiyalarının rolu (Elektron həyat; Kommunikasiya; Virtual cəmiyyət; Elektron imza və s.); informasiya texnologiyalarının effektivliyinin meyarları, informasiya və kiber təhlükəsizlik;<br>Müasir əməliyyat sistemləri (ƏS) və onların iş prinsipi; Əməliyyat sistemlərində faylların idarə olunması;<br>Proqramlaşdırmanın əsasları;<br>Şəbəkələşmə;Veb sistemləri və texnologiyaları;<br>Veb səhifələrin hazırlanması (HTML kodları və WYSIWYG redaktorlar);<br>Süni intellekt sistemləri;<br>İnformasiya təhlükəsizliyi və ona nail olma yolları: şifrələmə üsulları; kriptosistemlər; steqanoqrafiya; informasiyanın gizlədilməsi üsulları; şəbəkə təhlükəsizliyi; rəqəm imza texnologiyası; kompüter və informasiyanın kiberhücumlardan qorunması və icazəsiz istifadəsinin qarşısını almaq üçün təhlükəsizlik tədbirlərindən istifadə etmək, antiviruslar və s.;<br>MS Office 365 paket proqramlarının tətbiqləri: MS Word mətn prosessorunun imkanları, MS Excel cədvəl prosessorunda mürəkkəb (ixtisas üzrə) cədvəllərin qurulması, hesablamaların aparılması və s., Təqdimatların hazırlanması, PDF faylların hazırlanması və redaktəsi, Teams proqramı və s. proqramların (tətbiqi proqramların) imkanlarından istifadə;<br>Verilənlər bazası (VB), Verilənlər bazasının idarətmə sistemləri (VBİS) və onun imkanları öyrədilir. | 3 |

| | | |
|---|---|---|
| 14 | **Tarixi tədqiqatlarda riyazi metodlar**<br>Fənn peşəkar tarixçilərin hazırlanmasında mühüm rol oynayır. Bu fənn analitik bacarıqların formalaşması, tarixi tədqiqatların aparılması, xüsusilə ölçmə və təhlil məsələləri ilə bağlı bilik və bacarıqların formalaşması və inkişafı istiqamətində vacib yer tutur. Fənn çərçivəsində tarixi hadisələrin qarşılıqlı əlaqə və asılılıqlarının müəyyənləşdirilməsi, onların inkişaf dinamikasının ölçülməsi, müqayisələrin aparılması bacarıqları aşılanır, statistik məlumatların toplanması prinsiplərini, onların işlənməsi qaydalarını, hadisə və proseslərin tədqiqatının aparılması, müxtəlif əlamətə malik hadisələrə müvafiq ümumiləşdirici göstəricilərin müəyyənləşdirilməsi və hesablanması üsullarını, nəzəri biliklərə yiyələnməklə sərbəst tədqiqat aparılması öyrədilir. Fənnin tədrisi zamanı əsas diqqət SPSS, Stata kimi kompyuter proqramlarının mənimsənilməsinə, bu və ya digər statistik metodun öyrənilməsinə yetirilir. | 3 |
| 15 | **İxtisas yönümlü xarici dil**<br>Fənn tələbələrə tədris olunan dilin səs quruluşunu, leksik-semantik təbiətini, lüğət tərkibini, dilin qrammatik strukturunu və tərkib elementlərini, leksik-qrammatik vahidlərin paradiqmatik və sintaqmatik əlaqələrini, onların funksionallığını və s. məsələləri nəzəri aspektdə öyrədir, eyni zamanda, bu biliklərin tətbiqi vərdişlərini formalaşdırır. Fənn çərçivəsində xarici dilə yiyələnmək üçün danışıq, yazı, oxu və dinləmə bacarıqları sistematik şəkildə inkişaf etdirilir. Bu fənn tələbələrdə öyrədilən dildə sərbəst formada fikir və düşüncələrini ifadə etmək, təqdim olunan dil materialının təhlilini aparmaq bacarığını da formalaşdırır. | 14 |
| 16 | **Qafqaz tarixi**<br>Fənn Qafqazın qədim və feodalizm dövründə tarixini, Ərəblərin və monqolların Qafqaza yürüşlərini, XVI-XVII əsrlərdə Qafqazda beynəlxalq vəziyyəti, XVIII əsrin birinci və ikinci yarısında Qafqazın tarixini, Qafqaz xalqlarının mədəniyyətini, Qafqaz XIX əsrin birinci yarısında, Qafqazın Rusiyaya birləşdirilməsi-Qafqaz xalqlarının milli-azadlıq mübarizəsini, XIX əsrdə Qafqaz xalqlarının mədəniyyətini, Qafqaz XX əsrin əvvəllərində, Qafqazda 1918-1920-ci illərdə müstəqil dövlətlərin yaranması və fəaliyyətini,Qafqaz böyük vətən müharibəsi illərində, 1946-1985-ci illərdə Qafqazın sosial-iqtisadi və siyasi həyatını, müasir mərhələdə Qafqazda milli proseslərdə ziddiyyət və münaqişələri, o cümlədən müasir dövrdə Qafqazın beynəlxalq münasibətlərdə yerini öyrənir. | 7 |
| 17 | **Antik tarix**<br>Antik tarix anlayışı, Ümumdünya tarixində onun yeri, öyrənilmə tarixi; Avropa antik tarix sistemində, Antik tarix: ilk sinifi cəmiyyətlərin və | 4 |

| | | |
|---|---|---|
| | dövlətlərin tarixi: onun xronoloji və coğrafi hüdudları, dövrləşmə, Azərbaycan və antik dünya, Antik dövlət: idarəçilik formaları və onların tarixi rolu, Antik dövrün mədəni irsi və onun bəşəriyyət tarixində yeri və əhəmiyyəti, Qədim Yunanıstan və Qədim Roma tarixi, onların tarixi inkişaf xüsusiyyətləri öyrənilir. | |
| 18 | **Arxeologiya**<br>Arxeologiya tarix elminin müstəqil bir sahəsi kimi maddi mədəniyyət nümunələrini, artefaktların axtarılıb tapılması və arxeoloji tədqiqinin xüsusiyyətlərini, Azərbaycanda müxtəlif arxeoloji dövrlərə aid arxeoloji komplekslərin və mədəniyyətlərin ümumi səciyyəsini, Azərbaycan arxeologiyasını,habelə ümumi arxeoloji problemləri öyrənir. | 4 |
| 19 | **Mülki müdafiə**<br>Fənn çərçivəsində fövqəladə halların qarşısının alınması və aradan qaldırılması üçün vahid dövlət sistemi, təbii fəlakətlər zamanı təhlükəsizliyin təmin edilməsində vətəndaşların hüquq və vəzifələri, fərdi və kollektiv müdafiə prinsipləri, qəza-xilasetmə və digər təxirəsalınmaz işlər, ilk tibbi yardımın göstərilməsi, təcili təxliyə və bərpa tədbirləri, təhsil sahəsində mülki müdafiə tədbirləri təşkil etmək kimi məsələlər tədris olunur. | 3 |
| 20 | **Amerika tarixi**<br>Fənn çərçivəsində Amerikada qədim svilizasiyaların yaranması, inkişafı, süqutu, xüsusiyyətləri və müasir Amerika tarixinə təsirləri təhlil edilir; Amerikanın avropalılar tərəfindən işğalı, yerli əhalinin soyqırımı və müstəmləkəyə çevrilməsi öyrənilir; ABŞ-ın yaranması, Şimali Amerikada birinci istiqlaliyyət müharibəsi dövrü, Konstitusiyanın qəbulu, ikinci istiqlaliyyət müharibəsi, ABŞ-da vətəndaş müharibəsi, ABŞ-ın Amerikada müstəmləkə və işğal/genişlənmə siyasəti təhlil olunur; XX əsrin əvvəllərində ABŞ-ın daxili və xarici siyasəti, ABŞ-ın birinci dünya müharibəsi illərindəki tarixi öyrənilir; Cənubi Amerikada müstəmləkəçilərə qarşı mübarizə və ilk müstəqil dövlətlərin yaranması prosesi, Amerika dövlətlərinin konfransları, Birinci Dünya müharibəsinin Amerika üçün nəticələri tənqidi təhlil edilir və öyrənilir. | 7 |
| ... | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlər**[1]<br>Burada olan fənlər hər bir ali təhsil müəssisəsi tərəfindən fərdi qaydada müəyyən edilir və həmin ixtisasın tədris planında əksini tapır. | 60 |
| | **Təcrübə** | 30 |
| | **Cəmi** | 240 |

[1] Bu fənlər professor-müəllim heyətinin təcrübəsi, tədqiqat infrastrukturu, yerli və beynəlxalq iş imkanları nəzərə alınaraq ali təhsil müəssisəsi tərəfindən təklif edilir. Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlər tələbələr üçün seçmə xarakteri daşımalı, eləcə də tələbələrin xarici mübadilə proqramlarında iştirakına şərait yaratmalıdır.

## 4. Tədris və öyrənmə

4.1. Tədris və öyrənmə mühiti elə təşkil olunmalıdır ki, tələbələr təhsil proqramında nəzərdə tutulan təlim nəticələrini əldə edə bilsinlər.

4.2. Tədris və öyrənmə metodları müvafiq sənədlərdə (məsələn, müəllimin sillabusunda və s.) təsvir edilməli və ictimaiyyətə (məsələn, universitetin veb səhifəsində, proqramın broşurlarında və s.) açıq olmalıdır.

4.3. Tədris və öyrənmə metodları innovativ təhsil təcrübələri nəzərə alınaraq davamlı şəkildə nəzərdən keçirilməli və təkmilləşdirilməlidir. Tədris və öyrənmə metodlarının müntəzəm şəkildə təkmilləşdirilməsi universitetin keyfiyyət təminatı sisteminin bir hissəsi olmalıdır.

4.4. Təlim prosesində fərqli tədris metodlarından istifadə edilməlidir. Bu metodlar tələbəyönümlü yanaşmanı və tələbələrin təlim prosesindəki fəal rol oynamasını təşviq etməlidir. İstifadə edilə biləcək tədris və öyrənmə metodlarına aşağıdakıları nümunə olaraq göstərmək olar:

- mühazirə, seminarlar, praktiki tapşırıqlar;
- təqdimatlar və müzakirələr, debatlar;
- müstəqil iş/araşdırma (məsələn, praktiki nümunələrlə iş);
- layihələr;
- problemlərə əsaslanan tədris;
- sahə işləri;
- rol oyunları;
- hesabatlar;
- qrup qiymətləndirməsi;
- ekspert metodu;
- video və audio konfrans texnologiyaları;
- video və audio mühazirələr;
- distant təhsil;
- simulyasiyalar;
- və s.

***Qeyd:*** *sadalanan metodlar ixtisasın spesifikasından asılı olaraq seçilə və (və ya) dəyişdirilə bilər.*

4.5. Təhsildə nəzəriyyə və praktiki təlim arasında tarazlıq gözlənilməlidir. Əsas diqqət əmək bazarının dəyişən ehtiyaclarına uyğun olaraq praktiki bacarıqların gücləndirilməsinə yetirilməlidir.

4.6. Təhsil proqramı tələbələrin müstəqilliyini dəstəkləməli və ömürboyu təlim konsepsiyasını inkişaf etdirməlidir. Təhsil prosesinin sonunda tələbə hər hansı istiqamətdə müstəqil işləyə bilməli və təhsilini ömürboyu davam etdirməyi bacarmalıdır.

## 5. Qiymətləndirmə

5.1. Qiymətləndirmə elə təşkil olunmalıdır ki, tələbələrin gözlənilən təlim nəticələrini əldə etmələri səmərəli şəkildə ölçülə bilinsin. Bu, əldə olunan irəliləyişi monitorinq etməyə, təhsil proqramlarının nəticələrinə hansı dərəcədə nail olunduğunu qiymətləndirməyə, eləcə də tələbələrlə fikir mübadiləsinə şərait yaratmağa və təhsil proqramlarının təkmilləşdirilməsi üçün ilkin şərtlərin formalaşdırılmasına yardım etməlidir.

5.2. Qiymətləndirmə üsulları müvafiq sənədlərdə (məsələn, fənn proqramında, sillabusda və s.) təsvir edilməli və hamı üçün açıq olmalıdır (məsələn, universitetin veb səhifəsində, proqramın broşurlarında və s.).

5.3. Qiymətləndirmə üsulları innovativ tədris təcrübələri nəzərə alınaraq davamlı şəkildə nəzərdən keçirilməli və təkmilləşdirilməlidir. Qiymətləndirmə üsullarının müntəzəm şəkildə yenilənməsi ali təhsil müəssisəsinin keyfiyyət təminatı sisteminin bir hissəsi olmalıdır.

5.4. Tədris prosesində fərqli qiymətləndirmə üsullarından istifadə edilməlidir. Bu üsullar tələbəyönümlü yanaşmanı və tələbələrin təlim prosesindəki fəal rol oynamasını təşviq etməlidir. İstifadə edilə biləcək qiymətləndirmə üsullarına nümunələr:

- yazılı tapşırıqlar;
- bilik və bacarıqlara dair testlər, kompyuter əsaslı testlər;
- şifahi təqdimatlar;
- sorğular;
- açıq müzakirələr;
- praktika hesabatları, sahə işləri hesabatları;
- praktikada, laboratoriyada müşahidələrə əsasən bacarıqların qiymətləndirilməsi;
- layihə işlərinə dair hesabatlar;
- portfolionun qiymətləndirilməsi;
- frontal sorğu;
- qrup şəklində və özünü qiymətləndirmə;
- və s.

***Qeyd:*** *sadalanan üsullar fənnin spesifikasından asılı olaraq seçilə və (və ya) dəyişdirilə bilər.*

5.5. Təlim nailiyyətlərinin qiymətləndirilməsində istifadə olunan üsullar aydın müəyyənləşdirilmiş meyarlara əsaslanmalıdır və təhsil müddətində tələbənin əldə etdiyi bilik, bacarıq və qabiliyyət səviyyəsini düzgün və etibarlı şəkildə müəyyən etməyə imkan verməlidir. Təlim nəticələrinin qiymətləndirilməsi zamanı müəllimlər şəffaflıq, qərəzsizlik, qarşılıqlı hörmət və humanistlik prinsiplərini rəhbər tutmalıdırlar.

5.6. Tələbələrə müəllimlərlə/qiymətləndiricilərlə təhsillərinin bütün aspektlərini, o cümlədən qiymətləndirmə prosesini müzakirə etmək imkanı verilməlidir. Ali təhsil müəssisəsi müvafiq qaydalara uyğun olaraq qiymətləndirmə prosesi, yaxud qiymətlə bağlı apelyasiya prosedurlarını müəyyən etməlidir.

5.7. Akademik etika təhsil prosesində önəmli yer tutur. Tələbələrə akademik dürüstlüyə riayət etmək, plagiarizm problemini anlamaq öyrədilir. Onlar intellektual əməyin əqli mülkiyyət hüquqları barəsində məlumatlandırılmalıdırlar.

## 6. Proqramın və hər bir fənnin təlim nəticələri

6.1. Təhsil proqramının təlim nəticələri, eləcə də hər bir fənnin təlim nəticələrinin müəyyənləşdirilməsi və hər bir fənnin sillabusunun hazırlanması ali təhsil müəssisəsinin/akademik heyətin səlahiyyətindədir.

6.2. Təlim nəticələri hər bir ali təhsil müəssisəsi tərəfindən Əlavə 1-dəki formaya uyğun olaraq müəyyənləşdirilir. Təlim nəticələri matrisində (Əlavə 2) fənlərlə təlim nəticələri arasındakı əlaqə əks olunmalıdır.

6.3. Təhsil Proqramının cəmiyyətin və əmək bazarının dəyişən ehtiyaclarına cavab verən nəzəri və praktiki məzmunu təmin etməsi məqsədilə fənlərin sillabusları müntəzəm şəkildə yenilənməlidir.

## 7. İnfrastruktur və kadr potensialı

7.1. **"050214 Tarix"** ixtisasının təhsil proqramına müvafiq hazırlanmış tədris planında nəzərdə tutulan fənlər üzrə dərslərin aparılması, təcrübələrin keçirilməsi və elmi-tədqiqat işlərinin yerinə yetirilməsi üçün müvafiq İKT ilə təchiz olunmuş kabinet və laboratoriyalar, kompüter sinifləri, emalatxanalar və s. ilə təmin olunmuş maddi-texniki bazası olmalıdır. Təhsilalanların ali təhsil müəssisəsinin lokal şəbəkəsinə, internetə, məlumat bazalarına, elektron kitabxanalarına, axtarış sistemlərinə çıxışı təmin edilməlidir.

7.2. Ali təhsil müəssisələrinin professor-müəllim heyəti, bir qayda olaraq, elmi dərəcəyə malik olur. Digər dövlət, yaxud özəl müəssisələrdən və/və ya digər müvafiq təşkilatlardan gələn yüksək ixtisaslı mütəxəssislər, həmçinin müvafiq ixtisas qrupu üzrə minimum magistr dərəcəsinə sahib olan şəxslər də tədrisə cəlb oluna bilərlər.

## 8. Təcrübə

8.1. Təcrübə tələbənin nəzəri biliklərinin praktikada tətbiqi, eləcə də peşə bacarıqlarının gücləndirilməsi baxımından önəmlidir. İxtisasın xüsusiyyətlərindən asılı olaraq təcrübənin təşkili qayadaları ali təhsil müəssisəsi tərəfindən müəyyən oluna bilər.

8.2. Təcrübə özəl şirkətdə, dövlət müəssisəsində, tədqiqat laboratoriyasında (eləcə də universitet, AMEA, yerli, yaxud beynəlxalq özəl təşkilat və şirkətlərdə və s.) təşkil oluna bilər.

8.3. Təcrübə prosesindən maksimal fayda əldə etmək məqsədilə tələbələr ilkin hazırlıq prosesinə cəlb edilməli (karyera palanlanması) və onların müvafiq bacarıqları (yumşaq və sərt bacarıqlar) fromalaşdırılmalıdır.

8.4. Təcrübənin təşkili ali təhsil müəssisəsinin vəzifəsidir. Təcrübədən öncə ali təhsil müəssisəsi və təcrübə təşkil olunacaq qurum arasında müqavilə imzalanmalıdır. Müqavilədə təcrübənin keçirilmə şərtləri, tələbələrin hüquq və vəzifələri və digər zəruri təfərrüatlar əks olunur. Təcrübəni təşkili iki formada təklif olunacaqdır. İmzalanmış müqaviləyə uyğun olaraq, tələbələr müvafiq şirkət və qurumlarda təcrübə imkanlarını araşdıracaq və müsbət dəyərləndirilən tələbələr qarşı tərəfin razılıq sənədlərini

universitetə təqdim edəcəkdir. Eyni zamanda, tələbənin fərdi müraciəti əsasında onun ixtisasına uyğun digər qurumlarda, o cümlədən xaricdə təcrübə keçməsinə icazə verilir.

8.5. Təcrübənin təşkilinin ikinci forması isə, tələbələrin iş dünyasından daxil olan sifariş layihələrinin icra olunmasıdır. Belə ki, müxtəlif özəl və dövlət qurumlarında ehtiyac duyulan araşdırmalar, təkmilləşmə imkanları, problemlərə həll yolları tələbə və mentor müəllimlərin birgə fəaliyyəti ilə təhlil və tədqiq ediləcək və layihə şəklində sifarişçilərə təqdim ediləcəkdir.

8.6. Təcrübənin qiymətləndirilməsi təqdim olunmuş layihənin dəyərləndirilməsindən sonra iş dünyası nümayəndələri tərəfindən həyata keçiriləcəkir.

8.7. Təcrübənin qiymətləndirilməsi: tələbə təcrübə müddətində istehsalat müəssisəsi və ya şirkətdə aparılan təcrübə layihəsinin nəticələrinə dair hesabatın yazmalı və ali məktəbin akademik heyəti və təcrübə yerinin nümayəndələrindən ibarət komissiya qarşısında müdafiə etməlidir. Təcrübə proqramının yerinə yetirilməsi üzrə nəticələr təhsil müəssisəsi tərəfindən müəyyənləşdirilmiş formada qiymətləndirilir.

## 9. Məşğulluq və ömürboyu təhsil

9.1. **"050214 Tarix"** ixtisası üzrə məzun olan tələbələr əsasən dövlət qurumlarında, yerli özünüidarəetmə orqanlarında və mülkiyyət formasından asılı olmayaraq müxtəlif müəssisələrdə tarix üzrə mütəxəssis/məsləhətçi və təhlilçi olaraq fəaliyyət göstərə bilərlər. Bundan əlavə, məzunlar tabeliyindən asılı olmayaraq peşəsinə və ixtisas dərəcəsinə uyğun gələn istənilən sahədə, təşkilatda, idarədə, müəssisədə, birlikdə, qurumda, nazirlik və komitələrdə, həmçinin agentlikliklərdə və araşdırma/beyin mərkəzlərində tarixçi mütəxəssis/məsləhətçi olaraq da çalışa bilərlər.

9.2. Ali təhsil müəssisəsi Təhsil Proqramının məzunlarının məşğulluğuna dair müntəzəm sorğular keçirməli, eləcə də vakant iş yerlərinə dair məlumatları öz veb səhifəsində yerləşdirməlidir.

*9.3.* **"050214 Tarix"** ixtisası üzrə Təhsil Proqramının məzunları təhsillərini "Humanitar və sosial" ixtisaslar qrupuna daxil olan "060206 Tarix", "060207 Antropologiya", "060213 Beynəlxalq münasibətlər"(müəyyən ixtisaslaşmalar üzrə), "060208 Politologiya"(bəzi ixtisaslaşmalar), "060211 Regionşünaslıq", "060214 Dinşünaslıq" (bəzi ixtisaslaşmalar), "060210 Sosiologiya"(bəzi ixtisaslaşmalar), "060204 Jurnalistika"(Mətbuat tarixi), "060202 Fəlsəfə"(bəzi ixtisaslaşmalar), "Təhsil" ixtisaslar qrupuna daxil olan "060111 Tarix müəllimliyi", Mədəniyyət və incəsənət ixtisasları qrupuna daxil olan "060301 Muzeyşünaslıq, arxiv və abidələrin qorunması", "060302 Sənətşünaslıq" (Mədəniyyətin tarixi), Səhiyyə, rifah və xidmət ixtisasları qrupuna daxil olan "060803 Turizm və otelçilik"(bəzi ixtisaslaşmalar), "060805 Sosial iş"(bəzi ixtisaslaşmalar üzrə) Magistr proqramlarında davam etdirə bilərlər.

9.4. Təhsil müddətində əldə olunan bilik, bacarıq və yanaşmalar məzunların müstəqil şəkildə ömürboyu təhsil almaları üçün ilkin şərtlərdəndir.

**Razılaşdırılmışdır:**

Azərbaycan Respublikasının Təhsil Nazirliyinin Aparat rəhbərinin müavini,

Elm, ali və orta ixtisas təhsil şöbəsinin müdiri

____________________Yaqub Piriyev

"06" 08 2020-ci il

Humanitar və sosial ixtisaslar qrupu üzrə

Dövlət Təhsil Proqramlarını Hazırlayan işçi qrupun sədri

______________Fariz İsmayılzadə

"05" avqust 2020-ci il

Əlavə 1

## Təhsil Proqramı və fənlər üzrə təlim nəticələri

Ali təhsil müəssisəsi Təhsil Proqramı və hər fənn üzrə gözlənilən təlim nəticələrini müəyyən etməlidir. *Aşağıdakı cədvəllərdə ən azı 6 təlim nəticəsi sadalanmalıdır (Təhsil Proqramı və hər fənn üzrə ayrılıqda)*

| Təhsil Proqramının təlim nəticələri (PTN) |
|---|
| PTN 1. Yüksək yaradıcı və tənqidi təfəkkürə, vətənpərvərliyə, geniş erudisiyaya, sosial-siyasi məsuliyyətə, yazılı və şifahi nitq vərdişlərinə, liderlik qabiliyyətinə yiyələnir, xarici dildən sərbəst istifadə etməyi bacarır. |
| PTN2.Tarixi insan cəmiyyətinin əsas inkişaf mərhələlərini, onların bir-birini əvəzləməsi qanunauyğunluqlarını təhlil etməyi bacarmaq; svilizasiyaların bir-birini əvəzləməsinə səbəb olan tarixi proseslərin baş verməsini şərtləndirən obyektiv amilləri təhlil etməyi bacarmaq. |
| PTN 3.Tarixi hadisə və problemlərin araşdırılmasında tarixi mənbələrdən və sənədlərdən istifadə etməyi bacarmaq; tarixi hadisə və problemin tədqiqi zamanı müxtəlif tarixi dövrlərə və xalqlara dair çoxsaylı mənbəşünaslıq və tarixşünaslıq materiallarını müqayisə etmək, onları oxşar və fərqli xüsusiyyətlərinə görə fərqləndirməyi və ümumiləşdirməyi bacarmaq. |
| PTN 4. Tarixi problemlərin araşdırılması zamanı qərəzlilikdən, hadisələri birtərəfli işıqlandırmaqdan uzaq olmağı, ictimai proseslərin əsas mahiyyətini elmi-obyektiv müstəvidə tənqidi təhlil və təsvir etməyi bacarmaq. |
| PTN 5. Tarixi hadisələrin tədqiqi prosesində yazıyaqədərki maddi-mədəniyyət, o cümlədən çoxsaylı arxeologiya, numuzmatika nümunələrindən istifadə etməyi bacarmaq. |
| PTN 6. Azərbaycan ərazisində ən qədim dövrlərdən bu günə qədər mövcud olan dövlətlərin tarixi-coğrafi sərhədlərini, adlarının anlamını sosial-iqtisadi və siyasi cəhətlərini çoxsaylı və etibarlı mənbələr əsasında müstəqil öyrənməyi və inkişaf etdirməyi bacarmalıdır. |
| PTN 7. Azərbaycan Respublikası dövlətçiliyinin təməl prinsiplərinin möhkəmləndirilməsində tarixi bilik və bacarıqlardan istifadə etmək qabiliyyətləri var. |
| PTN 8. Azərbaycan Respublikasının milli maraqlarının qorunaraq möhkəmləndirilməsində Vətən və Dünya tarixi üzrə biliklərindən sübut və sübutəmələgəlmə proseslərində faydalanmağı bacarmaq. |
| PTN 9. Məkan-zaman amillərini ən müxtəlif dövrlərə tətbiq etməyi bacarmalı, lokal zaman-məkan kəsiyində hər hansı bir tarixi hadisə və prosesi "bərpa"-rekonstruksiya etməyi, tarixi model yaratmağı bacarmaq. |
| PTN 10. Azərbaycanın maddi-mənəvi dəyərlərini, qan yaddaşını gələcək nəsillər üçün qorumaq, tarixi həqiqətlərimizi dünya ictimaiyyətinə çatdırmaq və təbliğ etmək üçün tarix elminin nailiyyətlərindən istifadə etməyi bacarmaq. |
| PTN 11. Türk xalqları içərisində özünüdərk meyllərinin güclənməsi zəminində çoxsaylı türkdilli xalqlar arasında türkçülük ideologiyasının inkişafını, onun dünyada baş verən proseslərə təsirini, o cümlədən regional və beynəlxalq müstəvidə rolunu təhlil etməyi bacarmaq. |
| PTN 12. Dünya ölkələrinin sosial-iqtisadi və siyasi inkişafının səciyyəvi cəhətlərini bilmək, müasir dünyada hadisə və proseslərin inkişaf meyllərini müəyyənləşdirməyi bacarmaq. |
| PTN 13. Müasir tarixi tədqiqatları aparmağı, zəruri riyazi və statistik metodlardan istifadə |

| |
|---|
| etməyi bacarmaq. |
| PTN 14. Dünyanın müxtəlif regionlarında müasir dövrdə baş verən hadisə, proses və təzahürləri təhlil edərkən bu sahədə öyrəndiyi tarixi biliklərdən istifadə etməyi bacarır; müasir siyasi proseslərlə bağlı irəli sürdüyü fikirləri arqumentləşdirmək üçün müxtəlif tarix fənnlərindən mənimsədiyi biliklərdən istifadə etməyi bacarır. |
| PTN 15. Strateji məqsədlərin düzgün formalaşdırılması, strategiyanın hazırlanması prosesində vəziyyətin analizini aparmağı bacarır; İnformasiya və psixoloji savaş şəraitində müəyyən olunmuş strateji idarəetmə vəzifələrini icra etməyi bacarır; Siyasət, sosial və humanitar sahələrdə strateji idarəetməni həyata keçirməyi bacarır. |

## Fənn üzrə təlim nəticələri (FTN)

| **"Azərbaycan tarixi" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN1 Azərbaycanın dünyanın ən qədim yaşayış məskənlərindən,ilk sivilizasiya məkanlarından biri olmasını müəyyən etməyi bacarır. |
| FTN 2 Azərbaycanın müxtəlif dövrlərdə dövlətçiliyinin təşəküllü şəraitini, siyasi, beynəlxalq amilləri təhlil etməyi bacarır. |
| FTN 3 Azərbaycanda milli-dövlətin təşəkkülü, formalaşmasında ideoloji, iqtisadi və mədəni amillərin rolunu təhlil etməyi bacarır; azərbaycançılıq ideologiyasını dərk edir. |
| FTN 4 Müxtəlif dövrlərdə Azərbaycan dövlətçiliyinin zəifləməsinə təsir göstərmiş xarici və daxili amilləri təhlil etməyi və ümumiləşdirməyi bacarır. |
| FTN 5 Azərbaycan dövlətinin müasir dünyada yeri və rolunu sistemli şəkildə öyrənmək. |
| FTN 6 Azərbaycan tarixinin inkişafının tarixi təcrübəsindən düzgün nəticələr çıxarmağı bilmək. |
| FTN 7 Müasir mərhələdə Azərbaycan dövlətçiliyinin güclənməsini şərtləndirən amilləri, şəxsiyyətin rolunu təhlil və müəyyən etməyi bacarır. |

| **"Azərbaycan dilində işgüzar və akademik kommunikasiya"** fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| **FTN 1** Qloballaşma şəraitində Azərbaycan dili və ona göstərilən dövlət qayğısı ilə bağlı məlumatlara yiyələnmək. Dövlət dili haqqında fərman və sərəncamlar, "Ulu öndər Heydər Əliyev və Azərbaycan dili" mövzusunda təqdimatlar hazırlamağı öyrənmək; "Azərbaycan dilində işgüzar və akademik kommunikasiya" fənninin məqsəd və vəzifələrini bilmək. Kommunikasiyanın forma və funksiyaları, kommunikasiya səviyyələri barədə biliklərə sahib çıxmaq. |
| **FTN 2** Akademik kommunikasiya prosesində köməkçi nitq hissələrinin rolunun nədən ibarət olduğunu mənimsəmək; şifahi və yazılı kommunikasiyalar, habelə nitqə verilən tələblər: nitqin düzgünlüyü, dəqiqliyi, aydınlığı, səlisliyi, təmizliyi, yığcamlığı, sadəliyi, zənginliyi , rabitəliliyi və digər önəmli məsələlərin rolunu müasir tələblər səviyyəsində öyrənmək. |
| **FTN 3** Kommunikasiya ritorikasının nədən ibarət olduğunu, ədəbi dilin üslublarını, Azərbaycan ədəbi dilinin aktiv və passiv leksikasını bilmək. Ədəbi dil və kommunikativlik, |

| |
|---|
| kommunikativliyin növləri, kommunikativlikdə rabitə və kommunikativ strategiya və yaradıcılıq texnologiyalarını mənimsəmək. |
| **FTN 4** Dinləmə mədəniyyəti və dinləmənin kommunikasiya növü kimi mahiyyətini öyrənmək. Dinləmə və diqqət, dinləmə formaları, dinləmə bacarıqlarının təkmilləşdirilməsinin önəmini qavramaq; kommunikasiya mədəniyyəti, danışıq etikası və müraciət etiketləri barədə məlumatlara yiyələnmək; təşkil olunmuş nitqin (mühazirə, məruzə, çıxış, spontan nitq) özünəməxsusluğunu bilmək; şifahi şəkildə işgüzar kommunikasiya yaratmaq. |
| **FTN 5** Müasir Azərbaycan dilinin işgüzar üslubu barədə məlumatları və qaydaları öyrənmək; İşgüzar kommunikasiyada məktubların rolu, elektron və onlayn kommunikasiyalar barədə biliklərini zənginləşdirmək; yazılı şəkildə işgüzar kommunikasiya yaratmaq. |
| **FTN 6** Rəsmi-işgüzar sənədləri dili barədə məlumatları öyrənmək; işgüzar kommunikasiyaların növləri və formaları, həmçinin dili və üslubu barədə məlumatlara yiyələnmək. İşgüzar kommunikasiyada Azərbaycan dilinin saflığının, orfoqrafiya qaydalarının və cümlə quruluşuna əməl olunmasının mahiyyətini öyrənmək. İşgüzar ritorika haqqında nəzəri və praktik çalışmalara sahib çıxmaq. |
| **FTN 7** Azərbaycan dilində ixtisas üzrə yazılı və şifahi təqdimatlar hazırlamağı bacarmaq. |

| **"Xarici dildə işgüzar və akademik kommunikasiya" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN1 Yazılı və şifahi nitq prosesində xülasələşdirmək, parafraz etmək, sintez etmək kimi bacarıqlar nümayiş etdirmək. |
| FTN 2 Nisbətən mürəkkəb mətnləri oxuyub təhlil edə bilmək; dinlədiyi və oxuduğu mətnin (ixtisasına uyğun elmi, ictimai-siyasi və s.) icmalını təqdim edə bilmək. |
| FTN 3 Müəyyən edilmiş məqsədə uyğun yazı strategiyaları seçə bilmək; müxtəlif janrlarda yazı nümunələri nümayiş etdirmək; yazılı şəkildə işgüzar kommunikasiya yaratmağı bacarır. |
| FTN 4 Effektiv ünsiyyət yaratmaq üçün sual müdaxiləsi, empatik dinləmə, məlumatı dəqiqləşdirmə, məlumatı əlavə təfərrüatla zənginəşdirmə və s. kimi texnologiyalara yiyələnmək. |
| FTN 5 İxtisas sahəsi daxilində müzakirələrdə iştirak edə bilmək; şifahi şəkildə işgüzar kommunikasiya yaratmağı bacarır. |
| FTN 6 Öyrəndiyi dildə yazılı təqdimatlar hazırlamağı bacarır. |
| FTN 7 Konkret sual ətrafında rabitəli, məntiqli və adekvat şifahi və yazılı mətn formalaşdırmaq. |

| **"Müasir informasiya- kommunikasiya texnologiyaları və informasiya təhlükəsizliyi" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 Yeni informasiya texnologiyaları və onların rolu haqqında bilikləri əldə edir. |
| FTN 2 Müasir informasiya- kommunikasiya texnologiyalarının növləri, təsnifatı haqqında biliklərə yiyələnir. |
| FTN 3. İnformasiya cəmiyyətinin konsepsiyası və xüsusiyyətləri, cəmiyyətin informasiyalaşdırılması prosesinin əsas mərhələləri haqqında biliklər qazanır. |
| FTN 4. Müvafiq ixtisas sahəsində müasir texnologiyalardan istifadə etmək praktikasına |

| |
|---|
| yiyələnir. |
| FTN 5. Müvafiq ixtisas sahəsində informasiya texnologiyalarının rolunu və effektivlik meyarlarını qiymətləndirir. |
| FTN 6. Müasir Əməiyyat Sistemlərinin iş prinsipini mənimsəyir. |
| FTN 7. Proqramlaşdırma bacarığına yiyələnir. |
| FTN 8. Veb sistemləri və texnologiyası sahəsində biliklərə yiyələnir və praktik iş təcrübəsi əldə edir. |
| FTN 9. Süni intellekt, ekspert sistemləri və s. haqqında biliklər əldə edir. |
| FTN 10. İnformasiya təhlükəsizliyi, ona nail olma yolları ilə bağlı bacarıqları formalaşır. |
| FTN 11. Ms Office 365 paket proqramlarını mənimsəyir və müvafiq ixtisas sahəsi üzrə tətbiq edir. |
| FTN 12. Verilənlər bazası haqqında biliyə yiyələnir və müvafiq ixtisas sahəsi üzrə tətbiq edir. |

| **"Azərbaycan tarixi" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN1. Azərbaycanın tarixi inkişafının müxtəlif mərhələlərini tədqiq etməyi bacarmaq. |
| FTN2. Ən qədim dövrlərdən müasir dövrədək mövcud olan dövlətçilik tarixi, mövcud olmuş dövlətlərin, onların fəaliyyəti, tariximizdə oynadığı rolu müəyyən etməyi bacarmaq. |
| FTN3. Azərbaycan dövlətlərinin ordu quruculuğu və xarici qəsbkarlara qarşı mübarizəyə dair tədqiqat aparmağı bacarmaq. |
| FTN4. Azərbaycan xalqının etnogenezi, Azərbaycan xalqının formalaşmasında mühüm amillərin elmi-obyektiv təhlili, öyrənilməsi və Azərbaycan ərazisinə oğuz- türk tayfalarının axınının səbəblərinin izah etməyi bacarmaq. |
| FTN5. Azərbaycan xalqının elm, mədəniyyət, incəsənət, ədəbiyyat, irsimizin və tarixi-memarlıq abidələrinin, öyrənilməsi və onların mühafizəsinə dair praktik bacarıqlara malik olmaq. |
| FTN6 Azərbaycanın dövlətçilik tarixinin dünya dövlətçilik tarixində yeri və rolunu təhlil etməyi bacarmaq. |
| |
| **"Tarixşünaslıq" fənni üzrə təlim nəticələri (FTN)** |
| FTN1. Tarixşünaslıq elminin predmeti, vəzifələri, praktik əhəmiyyətini araşdırmağı bacarmaq. |
| FTN2. Tarixşünaslığın inkişaf mərhələlərinin öyrənilməsi və izahını bacarmaq. |
| FTN3. Tarixi məktəbin və cərəyanların tarixşünaslıq elminin inkişafındakı rolu və yerini izah etməyi bacarmaq. |
| FTN4. Tarixşünaslıqda tarixi hadisə və fakt fenomeni, tarixi, hadisə və prosesi tarixşünaslıq müstəvisində tədqiqinin forma və metodlarını tətbiq etməyi bacarmaq. |
| FTN5. Tarixşünasliq materiallarının müqayisəli təhlili bacarıqlarının aşılanmasını bacarmaq. |
| FTN6 Tarixşünaslıqda milli konsepsiyanın yaranmasının təhlilini bacarmaq. |
| |
| **"Etnoqrafiya" fənni üzrə təlim nəticələri (FTN)** |
| FTN1. Azərbaycan və dünya xalqlarının mədəniyyətinin yaranması, inkişafı, mühüm nailiyyətləri haqqında biliklərin əldə edilməsi və öyrənilməsi prosesini izah etməyi bacarmaq. |

| |
|---|
| FTN2. Azərbaycan və dünya xalqlarının maddi-mənəvi mədəniyyətinin spesefik və fərqli cəhətlərinin müqayisəli təhlil etməyi və bununla bağlı mühakimələr irəli sürməyi bacarmaq. |
| FTN3. Azərbaycan və dünya xalqlarının adət-ənənə, qədim inanc, astral və mifik baxışlar sisteminin müqayisəli təhlili, müasir adət və mərasimlərimizdə onların rolu və yerini izah etməyi bacarmaq. |
| FTN4. Azərbaycanın maddi və qeyri maddi mədəni irsinin dünya ictimaiyyətinə çatdırılmasında və təbliğində etnoqrafik elmlərdən praktik istifadə qaydalarını, vərdişlərini təqdim etməyi bacarmaq. |
| FTN5. Azərbaycan həqiqətlərinin təbliğində etnoqrafiya elminin obyektiv, inandırıcı arqumentlərindən yararlanaraq, xalqımızın digər region və dünya xalqları ilə tarixən mövcud olan mədəni əlaqələrini, ortaq mənəvi dəyərlərini təhlil etməyi bacarmaq. |
| FTN6 Azərbaycan və dünya xalqlarının məişət və mədəniyyətində olan müxtəlifliyi öyrənməklə yanaşı, onların oxşar cəhətlərini izah etməyi bacarmaq. |
| |
| **"Şərq tarixi" fənni üzrə təlim nəticələri (FTN)** |
| FTN1. Şərq xalqlarının təşəkkülü və inkişafının dinamikasını təhlil etməyi bacarmaq. |
| FTN2. Qədim Şərqdə ilk sivilizasiya mərkəzlərinin yaranmasını zəruri edən obyektiv səbəbləri araşdırmaq, səbəb-nəticə əlaqələri əsasında tədqiq və təhlil etməyi bacarmaq. |
| FTN3. Qədim Şərqdə dövlətçilik ənənələri, ordu quruculuğu, böyük imperiyaların yaranması, inkişafı və tənəzzülünün səbəblərini araşdırmağı bacarmaq. |
| FTN4. Qədim Şərqin maddi-mədəniyyət abidələri, elm, incəsənət və mədəniyyəti, tarixi-memarlıq abidələri haqqında araşdırma aparmağı bacarmaq. |
| FTN5. Turizmin təbliğində Şərq tarixinin nailiyyətlərindən istifadə etməyi bacarmaq. |
| FTN6. Şərq ölkələrinin tarixi inkişafının müxtəlif mərhələlərini müqayisəli şəkildə təhlil etməyi bacarmaq. |
| |
| **"Avropa tarixi" fənni üzrə təlim nəticələri (FTN)** |
| FTN1. Avropada ilk insan məskənlərinin təşəkkülü, cəmiyyətin inkişafını şərtləndirən ilkin və obyektiv amillərin, səbəblərinin təhlilini bacarmaq. |
| FTN2. Avropada feodal cəmiyyətinin, feodal dövlətlərinin yaranması, onların fəaliyytini səbəb-nəticə əlaqələri əsasında təhlil etməyi bacarmaq. |
| FTN3. Avropada feodal pərakəndəliyini, natural təsərrüfatın mövcudluğunu doğuran obyektiv səbəblərini tədqiq etməyi bacarmaq. |
| FTN4. Avropa tarixinin müxtəlif inkişaf mərhələlərinin sosial-iqtisadi, tarixi-siyasi aspektdə təhlilini bacarmaq. |
| FTN5. Müasir beynəlxalq münasibətlər sisteminin araşdırılmasında beynəlxalq konfliktoloji problemlərin həllində Avropa tarixinin nailiyyətlərindən praktiki yararlanmaq qabiliyyətinə malik olmaq. |
| FTN6. Avropada yeni dövrdə dövlətlərarası münasibətləri araşdırmaq qabiliyyətinə malik olmaq. |
| |
| **"Müasir dünya tarixi" fənni üzrə təlim nəticələri (FTN)** |

| |
|---|
| FTN1. Müasir dünya tarixinin ən mühüm hadisə və proseslərinin elmi-obyektiv müstəvidə təhlili və öyrədilməsini bacarmaq. |
| FTN2. Müasir dünya tarixinin inkişaf dinamikasının təhlili, analizi, gedişi prosesinin çağdaş hadisələrə təsirinin təhlilini bacarmaq. |
| FTN3. Qlobal miqyaslı proseslərin öyrənilməsində, analitik təhlillərində müasir dünya tarixinin çıxardığı elmi nəticələrdən praktik yararlanmağı bacarmaq. |
| FTN4. Müasir dünya tarixinin elmi-praktik nəticələri əsasında gələcək proqnozların verilməsini bacarmaq. |
| FTN5. Müasir dünyada mövcud olan etnik münaqişələrin yaranma səbəblərini araşdırmağı bacarmaq. |
| FTN6. Müasir dünyada dövlətlərarası münasibətlərin müxtəlif aspektlərdən təhlilini bacarmaq. |
| |
| **"Türk xalqları tarixi" fənni üzrə təlim nəticələri (FTN)** |
| FTN1. Türk xalqlarının təşəkkülü və etnogenezini tədqiq etməyi bacarmaq. |
| FTN2. Türk xalqlarının dövlətçilik tarixinin və döyüş sənətinin əhəmiyyətini müəyyən etməyi bacarmaq. |
| FTN3. Türk xalqlarının inteqrasiyası prosesində türk xalqları tarixinin nailiyyətlərindən istifadə etməyi bacarmaq. |
| FTN4. Türk xalqlarının müasir sosial-ictimai, iqtisadi-siyasi vəziyyətini öyrənmək, analitik təhlillər aparmaq üçün sözügedən fənnin elmi nəticələrindən praktik istifadəni bacarmaq. |
| FTN5. Azərbaycanın müasir enerji layihələrində, Türkiyə və digər türkdilli dövlətlərlə iqtisadi-siyasi əlaqələrinin möhkəmləndirilməsində Türk xalqları tarixinin elmi tədqiqatlarının nəticələrindən bəhrələnməyi bacarmaq. |
| FTN 6. Türkçülük ideologiyasının müasir ideoloji savaşlarda üstünlüklərini bilir və siyasi hadisə və proseslərin izahında tətbiq etməyi bacarmaq. |
| |
| **"Slavyan ölkələri tarixi" fənni üzrə təlim nəticələri (FTN)** |
| FTN 1. Qədim slavyan tayfalarının, tayfa ittifaqlarının təşəkkülünü bilmək, inkişafı prosesinin təhlilini bacarmaq. |
| FTN 2. Qərbi, şərqi və cənub slavyanlarının ortaq və fərqli xüsusiyyətlərinin tarixi mənbələr əsasında təhlilini bacarmaq. |
| FTN 3. Slavyan ölkələrinin dövlətçilik ənənələri, ordu quruculuğunun spesifik cəhətlərini bilir və müqayisəli təhlilini bacarmaq. |
| FTN 4. Xalqların böyük köçündə slavyanların tarixi rolunun və yerinin səbəb-nəticə əlaqələri əsasında təhlilini bacarmaq. |
| FTN 5. Tarixi inkşafın ayrı-ayrı mərhələlərində slavyan ölkələri tarixini obyektiv müstəvidə təhlil etməyi və bununla bağlı mühakimələr irəli sürməyi bacarmaq. |
| FTN 6. Müasir dövrdə slavyan ölkələrinin inkişaf xüsusiyyətlərinin təhlili bacarmaq. |
| FTN 7. Azərbaycan Respublikasının slavyan ölkələri ilə iqtisadi-siyasi, mədəni əlaqələrinin qurulmasında və inkişafında slavyan ölkələri tarixinin elmi nəticələrindən praktik faydalanmağı bacarmaq. |
| |
| **"Riyazi metodlar" fənni üzrə təlim nəticələri (FTN)** |
| FTN 1. Tarixi tədqiqatlarda riyazi metodların tətbiqini zəruri edən amillərin təhlilini bacarmaq. |

| |
|---|
| FTN 2. Müasir informasiya bolluğunda tarixə dair mühüm faktların seçilməsində, tədqiqində, və təhlilində riyazi metodları tətbiq etməyi bacarır. |
| FTN 3. Tarixi informasiyanın riyaziləşdirilməsi metodlarını müəyyən etmək qabiliyyətinə malikdir. |
| FTN 4. Riyazi metodlar əsasında tarixi informasiyaları müqayisə və ümumiləşdirə bilir. |
| FTN 5. Tarixi tədqiqatların nəticələrinin təhlilində riyazi metodların tətbiqinin praktik istifadə qaydalarına malikdir. |
| FTN 6. Tarixi tədqiqatlarda kəmiyyət və keyfiyyət metodlarını tətbiq edə bilir, irəli sürdüyü fərziyyələri riyazi metodlarla yoxlaya bilmək. |
| FTN 7. Tarxi tədqiqatlarda bütün statistic metodları tətbiq etməyi bacarmaq. |
| |
| **"İxtisas yönümlü xarici dil" fənni üzrə təlim nəticələri (FTN)** |
| FTN 1 Dilin qrammatik quruluşunu mənimsəmək, qrammatik səhvləri müəyyən etmək və qrammatik cəhətdən qüsursuz mətn parçaları formalaşdıra bilmək; dilin struktur vahidlərinin kommunikativ funksiyalarına yiyələnmək və onlardan düzgün istifadə etmək. |
| FTN 2 Ünsiyyətin qurulması prosesində dilin zəngin resurslarından maksimum yararlanacaq səviyyədə dilin leksik korpusuna yiyələnmək; ixtisası ilə bağlı yazışma aparır, peşəsi ilə bağlı materialları yazılı və şifahi tərcümə etməyi bacarmaq. |
| FTN 3 Nitqi dinləyici üçün anlaşıqlı, vacib məqamları nəzərə çarpdıracaq qədər ekspressiv və məntiqli şəkildə qurmaq; ixtisası ilə bağlı peşəkar əlaqələr və ünsiyyət qurmağı bacarmaq. |
| FTN 4 Effektiv eşidib-anlama vərdişlərini inkişaf etdirmək. |
| FTN 5 Dinlədiyi mətnlərin təhlilini apara bilmək; əsas fikirləri, detalları şərh etmək; spesifik ifadələrin, idiomların, terminlərin mənasını anlamaq; intonasiya və digər prosodik vahidləri fərqləndirmək və bunların əsasında danışanın mövzuya emosional-ekspressiv münasibətini izah etmək. |
| FTN 6 Müxtəlif konkret və mücərrəd mövzulu,elmi və publisistik- yazılı mətnləri anlamaq, mətndə yer alan əsas fikirləri şərh etmək, mətnin əsas məqamlarını parafraz etmək və ümumiləşdirmək. |
| FTN 7 Öyrənilən dilin əsas ünsiyyət vahidlərinin normativ, kommunikativ və etik aspektlərdə tətbiqini bacarmaq; Sərbəst fikir söyləmək, tutarlı və zəngin nitq nümayiş etdirmək. |
| |
| **"Qafqaz tarixi" fənni üzrə təlim nəticələri (FTN)** |
| FTN 1. Qafqaz xalqlarının tarixinə dair mühüm, zəruri məlumatları bilmək, elmi biliklərin müqayisəli təhlilini bacarmaq. |
| FTN 2. Cənubi və Şimalı Qafqaz xalqlarının həyat və məişətini, ictimai-siyasi, mənəvi-dini baxışlar sistemini əks etdirən müxtəlif dövrlərə dair mənbələri tədqiq etməyi bacarmaq. |
| FTN 3. Qafqaz tarixinin tarixşünaslıq bazasının araşdırılmasını bacarmaq. |
| FTN 4. Qafqaz tarixində əldə etdiyi biliklərdən metodoloji əsas kimi istifadə edərək digər sahələrdə tədqiqat aparmaq səriştəsi var. |
| FTN 5. Cənubi və Şimali Qafqazda mövcud olan bir sıra beynəlxalq səciyyəli konfiliktlərin |

| |
|---|
| çözülməsində tarixi səbəbləri müəyyən etməyi və izah etməyi bacarmaq. |
| FTN 6. Müasir dövrdə Qafqazda milli proseslərdə ziddiyyət və münaqişələrin dərinləşməsinin səbəblərini analiz etmək səriştəsi var. |
| |
| **"Antik tarix" fənni üzrə təlim nəticələri (FTN)** |
| FTN 1. Antik tarixin predmeti, öyrənilməsi zərurətinin təhlil etməyi bacarmaq. |
| FTN 2. Antik tarixin qədim yunan və roma mənbələrinə dair tədqiqat aparmağı və əldə etdiyi nəticələri tətbiq etməyi bacarmaq. |
| FTN3. Azərbaycanın qədim və antik dövr tarixinin öyrənilməsində Antik tarixin elmi nəticələrindən praktik faydalanmaq vərdişləri formalaşıb. |
| FTN 4. Azərbaycanın mədəni irsinin tədqiqi, təhlili və təbliğində antik tarixə dair qaynaqlardan praktik yararlanmaq vərdişlərini bilir və əldə etdiyi nəticələri tətbiq etməyi bacarmaq. |
| FTN 5. Antik dövrdə dövlətlərarası münasibətləri araşdırmağı bacarmaq. |
| FTN 6. Antik dövr tarixinin tarix elmində yerini təhlil etməyi bacarmaq. |
| |
| **"Arxeologiya" fənni üzrə təlim nəticələri (FTN)** |
| FTN1. Arxeologiya fənninin predmeti, elmi-praktik əhəmiyyətinin təhlilini bacarmaq. |
| FTN2. Yaziyaqədərki maddi-mənəvi mədəniyyətlərin izlərinin aşkar edilməsində arxeologiya elminin rolu və yerini ölçməyi bacarmaq. |
| FTN3. Azərbaycanin yazıyaqədərki maddi mədəniyyət nümunələrinin aşkar edilməsində arxeologiyanın rolunun təhlilini bacarmaq. |
| FTN4. Azərbaycan xalqının bəşər tarixinin ən qədim çağlarında formalaşan mənəvi-dini, astraloji-mifik baxışlarının inkişafında, təşəkkülündə: Azıxda üzrəində yeddi parallel xətt olan ayı kəllələri, küp qəbir abidələri və s. elmi-praktik əhəmiyyətini bilmək və bu məsələlərə dair mülahizələr irəli sürməyi bacarmaq. |
| FTN5. Azərbaycanlilarin ibtidai cəmiyyətdən üzü bəri bu torpaqların qədim sakinləri kimi məskunlaşmasının sübut olunmasında, bədnam qonşularımızın tarixi saxtalaşdırmaq cəhdlərinin qarşısının alınmasında arxeologiya elminin nəticələrindən praktik faydalanmaq qabiliyyətinə malikdir. |
| FTN6. Azərbaycanda arxeoloji qazıntılar nəticəsində əldə edilmiş maddi-mədəniyyət nümunələrinin ölkə ərazisində mövcud olmuş dövlətlərin tarixinin öyrənilməsində əhəmiyyətini müəyyən etməyi bacarmaq. |
| |
| **"Amerika tarixi" fənni üzrə təlim nəticələri (FTN)** |
| FTN1. Amerika qitəsinin aborigen sakinlərinin həyat və məişətinin öyrənilməsi və təhlilini bacarmaq. |
| FTN2. Amerikada avropalıların ilk müstəmləkələrinin yaranmasını şərtləndirən amillərin təhlilini izah etməyi bacarmaq. |
| FTN3. ABŞ-ın yaranmasını şərtləndirən obyektiv amillərin təhlili və öyrənilməsini bilir, İstiqlaliyyət və Vətəndaş müharibələrinin səbəblərini araşdırmağı bacarmaq. |
| FTN4. Kanadaya yiyələnmək uğrunda fransız və ingilislərin mübarizəsini müqayisə edərək, Kanadaya dominion və müstəqilliyin verilməsini doğuran iqtisadi-siyasi və tarixi amillərinin təhlilini aparmağı bacarmaq. |
| FTN5. Meksika Venesuela, Braziliya, Kuba və d. Cənubi Amerika dövlətlərinin ən qədim |

| |
|---|
| dövrlərdən müasir dövrədək olan tarixi inkişaf xüsusiyyətlərini müxtəlif aspektlərdən araşdırmaq səriştəsi var. |
| FTN6. Müasir dünya tarixinin öyrənilməsində Amerika tarixinə dair tədqiqatların nəticələrindən praktik istifadə etməyi bacarmaq. |

| **"Mülki müdafiə" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 Fövqəladə hadisələrin təsnifatı, onların tam xarakteristikası, Mülki müdafiənin yaranma tarixi, onun FH-da rolu və vəzifələrini öyrənmək. Mülki müdafiə ilə bağlı normativ-hüquqi sənədləri bilmək; |
| FTN 2 Müasir dövürdə sülh və müharibə dövürlərində Mülki müdafiənin rolunu və vəzifələrini bilmək. Texnogen FH-də hadisələrin qarşısının alınması yolları, bakterioloji, kimyəvi və radiasiya şəraitində əhalinin davranış qaydalarını, mahiyyətini bilmək. Karantin, observasiya şəraitində, sanitar təmizliyi, ərazinin dezinfeksiyası, kimyəvi zəhərlənmə ocaqlarındadeqazasiya, radiasiya şəraitində isə dezaktivasiya üsullarını bilmək; |
| FTN 3 Fövqəladə halların nəticələrinin aradan qaldırılması üçün Dövlət sisteminin rolu və vəzifələrini bilmək. Hərbiləşdirilməmiş mülki müdafiə dəstələrinin yaradılmasını öyrənmək; |
| FTN 4 Fövqəladəhallar zamanı əhalinin mühafizəsinin təşkilini həyata keçirmək. Kollektiv mühafizə qurğuları və onlardan istifadə qaydalarını bilmək. Fərdi mühafizə vasitələri və onlardan istifadə qaydalarını bilmək. Fövqəladə hallar zamanı əhalinin köçürülməsini bacarmaq. Fövqəladə hallar zamanı əhalinin səmərəli mühafizəsinin təşkilini bacarmaq. Kollektiv mühafizə qurğuları və onlardan istifadə qaydalarını bacarmaq. Fərdi mühafizə vasitələri və onlardan istifadə qaydalarını bilmək. Fövqəladə hallar zamanı əhalinin köçürülməsini həyata keçirmək; |
| FTN 5 Mülki müdafiə kəşfiyyatının təşkili və aparılması qaydalarını bilmək. Radiasiya və kimyəvi kəşfiyyat cihazlarını işlətməyi bacarmaq. Mülki müdafə üzrə idaretmə, mülki müdafiə qərargahları və onların əsas vəzifələrini bilmək; |
| FTN 6 FH-in nəticələrinin aradan qaldırılması yollarını bilmək. Qəza- xilasetmə və digər təxirəsalınmaz işlərin dağıntı ocaqlarında təşkil etmək və aparılmasını həyata keçirmək. Əhalinin mülki müdafiə sahəsində hazırlanmasının prinsiplərini öyrənmək.Fövqəladə hadisələr zamanı dağıntı ərazisində ilk tibbi yardım aparmağı bacarmaq. |

Əlavə 2

## Fənlərin və Təhsil Proqramının təlim nəticələrinin matrisi

Ali təhsil müəssisəsi aşağıdakı cədvəldən istifadə edərək ixtisasın Təhsil Proqramının təlim nəticələrinin əldə olunmasına fənnlərin necə dəstək verdiyini müəyyən etməlidir.

| Bloku n adı | Fənlərin adı | Proqramın təlim nəticələri | | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | PTN 1 | PTN 2 | PTN 3 | PTN 4 | PTN 5 | PTN 6 | PTN 7 | PTN 8 | PTN 9 | PTN 10 | PTN 11 | PTN 12 | PTN 13 | PTN 12 | FTN 14 | PTN 15 | PTN 12 | FTN 6 |
| Ümumi fənlər | Azərbaycan dilində işgüzar və akademik kommunikasiya | | | x | x | | | | | | | | | | | | | | |
| | Xarici dildə işgüzar və akademik kommunikasiya | | | x | | | | | | | | | | | | | | | |
| İxtisas fənləri | Azərbaycan tarixi | x | x | x | x | x | x | x | x | x | x | | | x | x | | | x | x |
| | Tarixşünaslıq | x | | x | x | | | | | | | x | x | | | x | | | |
| | Etnoqrafiyanın əsasları | x | | | | x | | | | | | | | | | | x | | x |
| | Şərq tarixi | x | x | x | x | x | x | x | x | x | x | x | x | x | x | | | x | x |
| | Avropa tarixi | x | x | x | x | x | x | x | | x | | x | x | x | | x | x | x | |
| | Müasir dünya tarixi | x | x | x | x | x | x | x | | x | | x | x | x | | x | x | x | |
| | Türk xalqları tarixi | x | x | x | x | x | x | x | x | x | x | | x | x | x | x | x | x | x |
| | Slavyan ölkələri tarixi | x | x | x | x | x | x | x | x | x | x | x | x | x | | x | x | x | x |
| | Riyazi metodlar | x | x | x | x | | x | x | | x | | x | x | x | | x | | x | |
| | Xarici dil | x | x | x | x | | x | x | | x | | x | x | x | x | x | | x | |
| | Qafqaz tarixi | x | x | x | x | | x | x | | x | | x | x | x | | | x | | |
| | Antik tarix | x | x | x | x | | x | x | | x | | x | x | x | | x | | x | |
| | Arxeologiya | x | x | x | x | | x | x | x | x | x | | x | x | x | | x | x | x |
| | Amerika tarixi | x | x | x | x | | x | x | | x | | x | x | x | x | x | x | x | x |
| | Mülki müdafiə | | | | | | | | | | | x | | | | | | | |